**UOT 73**

***Elnur Qasımzadə***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** till_175@mail.ru

# AZƏRBAYCAN MONUMENTAL HEYKƏLTƏRAŞAŞLIĞINDA HEYDƏR ƏLİYEV OBRAZI

**Xülasə:** Azərbaycan respublikasının ümumilli lideri, dövlət xadimi, müasir Azərbaycanımızın banisi Heydər Əliyevin həsr olunmuş monumental heykəllər öz görünüşü psixoloji və mənəvi tutumu ilə göz oxşayır. Heykəltəraşlarımız tərəfindən, siyasi xadimin yaradılmış bütün obrazları, dahi şəxsiyyətin həyat və fəaliyyətinin müəyyən məqamlarını, özündə birləşdirmişdir. Bu yaradılmış heykəllərin bədii həlli, estetik görüntüsü və plastik forma biçimi, tişə ustalarımızın şəxsiyyətin psixologiyasına bələd olmasından və siyasi xadim obrazının yaradılması vəzifəsinin öhdəsindən məharətlə gəlmələrinin sübutudur.

**Açar sözlər**: heykətarşlıq, abidə, monumental heykəltəraşlıq, obraz, heykəl.

Həyat hadisələrini bədii obrazlar vasitəsi ilə əks etdirən heykəltəraşlıq təsviri incəsənətin ən geniş yayılmış sahələrindən biridir. Bəşər tarixinin canlı şahidləri olan heykəltəraşaşlıq nümunələri insanın nəcib əməllərini, şərəf və şöhrətini əsrlər boyu özündə yaşadır.Ən gözəl sənət növü sayılan heykəltəraşaşlığın Azərbaycanda tarixi çox qədimdir. Tarixi eramızdan əvvələ kimi gedib çatan bu sənətin çeşidli nümunələri olmuşdur ki, onlardan bu gün mövcud olan və olmayanlar da vardır. Xalqımızın milli sərvəti kimi qorunan heykəllər müxtəlif dövrlərdə müxtəlif heykətaraşlarımız tərəfindən yaradılmışdır.Bu mühüm sənət incilərimizin qorunması, onların qayğı ilə əhatə olunması üçün, həmçinin onların bədii-estetik səviyyəsinin yüksəldilməsi istiqamətində ölkəmizdə önəmli tədbirlər həyata keçirilmiş, sənədlər qəbul edilmişdir.

Heykəltəraşlıq sənətinin sahələrindən olan monumental heykəltəraşlıq, bütün zamanlarda özünün texniki cəhətdən mürəkkəbliyi və zəhmliliyinə görə seçilmişdir. Monumental heykəltəraşlığı bu sənətin digər sahələrindən daha vacib edən aspektlərdən biri də , bu növün məhz estetikliyi ilə bağlıdır. Beləki monumental heykəltəraşlıq əsərlərinin bilavasitə şəhər memarlığı ilə uyğunluğu, onun görünüşünü tamamlamağı vacib amillərdən hesab olunur. Monumental

heykəltəraşlıq əsərlərinin ölçü baxımından daha iri olması , bu əsərlərin əsasən açıq havalarda, parklarda, meydanlarda, şəhərin müxtəlif güşələrində ucaldılmasına zəmin yaradır. Bu gün həm paytaxtımızda həm də Respublikanın digər vilayətlərində çoxlu sayda monumental heykəltəraşaşlıq abidələri vardır ki, onlar əsasən mühüm ictimai hadisələrin, tanınmış şəxsiyyətlərinin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi üçün ucaldılmışdır.

Ölkəmizdə monumental heykəltəraşaşlıq janrında yaradılmış heykəllərin gözəl nümunələrindən biri də Azərbaycan xalqının xilaskarı,müasir Azərbaycanın banisi ümumilli lider Heydər Əliyevə həsr olunmuş monumental abidələridir.Hal hazırda, ölkəmizin elə bir şəhəri yoxdur ki, orada ulu öndərin xatirəsinə ucaldılmış monumental heykəltəraşlıq əsəri olmasın. Yaradılmış heykəllər öz ölçülərinə görə zəhmli və iridir . Yaradılmış abidələr adətən, dövlət müəssələrində, şəhərimizdə olan ulu öndərin adını daşayan park və meydanlarda, ümumilli liderimizin təhsisçisi olduğu dövlət təhlükəsizlik strukturlarının akademiyalarında, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin dəfn olunduğu və artıq açıq səma altında muzeyə çevrilmiş Fəxri Xiyabanda ucaldılmışdır. Heydər Əliyevin uğurlu siyasətini, onun dahiliyini özündə birləşdirən bütün əsərlər,yaradılmış digər heykəltəraşlıq abidələri kimi, dövlətimiz tərəfindən xüsusi mühafizə olunmaqdadır. Azərbaycan heykəltəraşlığında Heydər Əliyevin monumental obrazlarına öz yaradıcılıqlarında Ömər Eldarov, Natiq Əliyev, Fuad Salayev, Akif Əsgərov və.s bir sıra digər sənətkarlar müraciət etmişlər.

Azərbaycan monumental heykəltəraşlıq sahəsində ulu öndər obrazının ən əsrarəngiz nümunəsi hesab olunan əsərlərdən biri , liderimizin dəfn olunduğu məkanda I Fəxri xiyabanda ucaldılmışdır. Əsər cəmi 1 il ərzində ərsəyə gəlmişdir. Ölkə prezidenti İlham Əliyevin göstərişi ilə əsər tam olaraq tapşırıldığı müddətdə hazırlanmışdır. Tişə ustasının qeyd etdiyi kimi bu cür ansamblın ərsəyə gəlməsi olduqca mürəkkəb bir iş olmuşdur. Lakin buna baxmayaraq heykəltəraş öhtəsinə götürdüyü vəzifəni layiqincə yerinə yetirmişdir. Heykəltəraş Ömər Eldarovun sözlərinə görə abidənin ucaldılacağı məkanı məhz ölkə prezidentimiz İlham Əliyev özü seçmişdir. Monumental əsərdə tam ölçüdə ayaq üstə dayanmış vəziyyətdə yaradılmış Heydər Əliyev obrazının üz cizgiləri diqqət çəkir. Belə ki bu əsər ümumilli liderimizə ithaf olunumuş o əsərlərdəndir ki obrazın üz ifadəsində qürurlu gülümsəmə sezilir. Əlləri yanında, ciddi klassik geyimdə ,şux duruşu ilə yaradılmış lider obrazının simasında, dünyadan köçdüyünə baxmayaraq sevinc, xalqı və vətəni üçün əlindən gələn hər bir şeyi əsirgəməyən vətənsevərlik hisslərini görə bilərik ki, buda məhz bir ümumilli liderə xas olan cəhətlərdəndir. Ulu öndərin obrazı postamentlə birlikdə mərmərdən tökülmüşdür və ümum həcmi 6 metrə bərabərdir. Monumental heykəltəraşlıq ansamblını daha da daha da əsrarəngiz edən məqamlardan biridə Heydər Əliyev obrazının fonunda mərmər plitədən yaradılmış olan Azərbaycan Respublikasının xəritəsidir ki bu da özü özlüyündə liderin, hakimiyyətdə olduğu dönəmdə, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması naminə olduqca mühim addımlar atmasından irəli gəlmişdir.

Heykəltəraşlıq ansamblı memarlıq baxımından da ideal ölçülüb biçilmişdir. Yaşıllıqlarla əhatələnmiş monumentin yeri görüntünün daha da aydın alınması məqsədiylə olduqca ideal hesab oluna bilər. Beləki monument açıqlıqda ucaldılmışdır və əsərin üzərinə günəş daima öz işıqlarını saçmaqdadır. Azərbaycan heykəltəraşlıq sənətinin qızıl fonduna düşmüş bu əsər 2004-cü ildə ərsəyə gəlmişdir.

Heydər Əliyevə həsr olunmuş digər bir möhtəşəm abidə Bakı şəhərində yerləşən Ali Məhməkənin inzibati binasında yerləşdirilmişdir. Əsərin monumental olmasına baxmayaraq binanın daxilində yerləşdirilməsinin özünə məxsus səbəbləri də var. Belə ki, heykəltəraş bu səfər ulu öndərin obrazını  ağ mərmərdən ucaltmışdır. Bildiyimiz kimi Bakı şəhərində havanın turşulu olması material olaraq ağ mərmər üçün o qədər də əlverişli hesab olunmur. Buna baxmayaraq binanın daxilinə gözəllik qatan heykəltəraşlıq abidəsinin olduqca ideal kompozisiyası mövcuddur. Əsərin ümumi ölçüsü 5 metrə bərabərdir. Ciddi geyim üslubunda yaradılmış siyasi xadimin sağ əli Azərbaycan Respublikasının konstitusiyası üzərinə qoyulmuş halda yaradılmışdır. Kompozisiyanın bü yöndə seçilməsinin və məhz Ali Məhkəmə binasında qərar tutmasının səbəbi kimi, ulu öndərimizin hər şeydən öncə özünün məhz ölkə konstitusiyasını uca tutması, və idarəetmə sistemində məhz həmin qayda və qanunlara ciddi şəkildə riyayət etməsindən,eyni zamanda Ali Məhkəmənin və ümumilikdə məhkəmə sisteminin bir başa konstitusiyamızla əlaqəli olmasından irəli qəldiyini düşünmək mümkündür. Eyni zamanda, ulu öndərin başı dik halda qarşıya doğru qətiyyətlə baxışını gördükdə bu kompozisiyanın ulu öndərin hakimiyyətə gəldiyi dönəmdə, xalq içində and içmə səhnəsindən götürüldüyünüdə qeyd etmək olar.

Ümumilli liderimizə həsr olunan, ən zəhmli və ölçülərinə görə digərlərindən öz böyüklüyü ilə fərqlənən əsərlərindən biri də şəhərin mərkəzində yerləşən hal hazırda isə ulu öndərin adını daşına sarayın qarşısında yerləşən parkda ucaldılmışdır. Monumentin yaradıcıları Russiyanın öndə gedən heykəltəraşlarından olan Mixail Noqin və Salavat Şerbakov olmuşlar. Bəhs etdiyim heykəltəraşlıq abidəsi memarlıqla heykəltəraşlığın ideal sintezidir desəm yanılmaram. Kompozisiya özü özlüyündə, pilləli teatr səhnəsini xatırladır. Bütöv parkın mərmərdən ibarət olduğunu nəzərə aldıqda monumentin postamenti ilə yanaşı yerləşdiyi məkanın da pilləli mərmərdən ibarət olması əsərə xüsusi zövq vermişdir. Abidənin ölçülərinə diqqət yetirsən görə bilərik ki, tam olaraq mərmərdən ibarət postamentin ölçüsü 6 metrə, ümumilli liderimizin obrazının təcəssümü olan heykəltəraşlıq əsərinin hündürlüyü isə 5.2 metrə bərabərdir. Heykəlin ümumi çəkisi isə 2.4 tondur.  Əsərə nəzər saldıqda tam ölçüdə ayaq üstə işlənilmiş ümumilli liderimizin sağ əlinin yuxarıya doğru uzadılmış olduğunu görə bilərik. Buda özü özlüyündə siyasi xadimin hakimiyyəti dönəmində ölkə vətəndaşları ilə görüşdə salamlaşmağının simvolu kimi göstərilmişdir. Əsəri izlədikdə ulu öndərin vəfat etməsinə baxmayaraq, daima xalqının yanında və qayğısında olmasını sezə bilərik. Əsər Russiyanın Smolensk şəhərində tam olaraq tuncdan tökülmüşdür. Monumentin açılış mərasimi, Heydər Əliyevin vəfatından 2 il sonra May ayının 10

ulu öndərimizin 82 illik doğum gününə həsr olunmuş gündə baş tutmuşdur. Heykəlin yerləşdiyi park tam olaraq rekanstruksiya edilmişdir. Tamamiylə xarici ölkələrdən sifariş olunmuş mərmər plitələrlə örtülmüş parkda 3 ədəd 8 güşəli fontanlarda salınmışdır ki buda özü özlüyündə ölkəmizin simvolullarından biridir. Abidənin dörd bir tərəfində xüsusi müasir işıq sistemi də quraşdırılmışdır ki, buda özü özlüyündə Ümumilli liderimizin obrazının gecə saatlarında da daha aydın şəkildə görünməsinə gətirib çıxarmışdır.

Azərbaycan heykəltəraşları arasında öz yaradıcılığında ümumilli lideri obrazlarını dəfələrcə işləmiş heykəltəraşlardan biridə Fuad Salayev olmuşdur. Fuad Salayev yaradıcılığının şah əsərlərindən biri hesab olunan abidələrdən biri Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasında yerləşən "Şöhrət" muzeyinin qarşısında ucaldılmışdır. Muzeydə ölkə xilaskarının dolğun həyat və siyasi fəaliyyətinin , özünün və ölkəmizin qazandığı bütün nailiyyətlər əks olunmuşdur. Əsərlərində memarlıq spektorlarınada diqqət yetirən Fuad Salayev yaradmış olduğu obrazın, heykəltəraşıqla memarlığın ideal sintezinin əldə olunması yönündə də uğur əldə etməsinin şahidi ola bilərik. Beləki yaradılmış xilaskar obrazının fonunda üzərində dövlət gerbi əks olumuşdur.Əsəri Heydər Əliyev obrazlarına həsr olunmuş digər abidələrdən fərqləndirən cəhət isə, postamentlə bağlıdır. İstənilən prizmadan əsəri izlədikdə tamaşaçı, ulu öndər obrazının sanki, mərmərdən hazırlanmış postamentin daxilindən ucaldığını görə bilər ki buda özü özlüyündə yaradılmış əsərə daha da zənginlik qatan amillərdən biri olmuşdur. Əsərin təntənəli açılışı 2012-ci ilə təsadüf etmişdir. Heykəltəraş Fuad Salayevin ulu öndərimizə ithaf etdiyi digər abidələrdən biri isə hərbi hospital önündə ucaldılmışdır. Heykəltəraş üçün 2012-ci il həyatında olduqca yadda qalan il olmuşdur. Rəssamın sözlərinə görə, kompozisiya baxımından ulu öndərimizə həsr olunan obrazların əldə olunması prosesi olduqca mürəkkəb idi. Beləki,Fuad Salayev yaradıcılığının kulminasiya nöqtələrindən biri hesab olunan əsərlərdən biri ulu öndərimizin xatirəsinə həsr etdiyi, və hərbi hospital qarşısında yerləşdiyi ümumilli liderimizin ağ mərmərdən hazırlanmış heykəlidir. Əsərin postamenti qranitdən hazırlanmışdır. Ağ mərmərdən hazırlanmış ümumilli lider obrazının postamentlə birgə ölçüləri isə 4 metr təşkil etmişdir. Fuad Salayev bu heykəli də məhz, Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasındaki abidə ilə eyni motivdə işləmişdir. Buna baxmayaraq motivi və obrazın eyni olmasına baxmayaraq əsərlər bir birindən xeyli fərqlənir. Belə ki bu əsər də Heydər Əliyev klassik geyimdə tam ölçüdə digər abidəyə nisbətən daha dolu halda yaradılmışdır. Baxışının irəliyə doğru istiqamətlənməsi digər əsərlə uyğunlaşsada bu əsərdə kürsülük və konstitusiya elementləri yer almamışdır. Əsəri digəri ilə bənzər edən amillərdən isə bir postamenti qeyd edə bilərik. Heykəltəraşlın işlədiyi digər əsərdəki kimi bura da da ümumilli lider obrazı, sanki yarılmış poatament üzərindən çıxır. Yuxarıda qeyd etdiyimiz kimi, obrazla kompozisiyanın eyniliyinə baxmayaraq, təsvir olunmuş ümumilli lider siması və bədii tutumu bir birindən tamamiylə fərqlənir. Buna səbəbəb isə Fuad Salayevin qeyd etdiyi kimi, rəssamın əsas qayyəsi, yaradmış olduğu şəxsin daxili aləmini, psixoloji məqamlarını əsas tutması göstərilir.

Ulu öndərin paytaxtımızdan əlavə regionlarda da ucaldılan möhtəşəm monumental heykəl abidələri də vardır.Bunlardan biri də Gəncə şəhərinin mərkəzində ucaldılmışdır. Ölkəmizdə ümumilli liderə həsr olunmuş əsərlərdən qabaritinə görə ən iri və həcmlisi olan abidənin postamenti mərmərdən , siyasi xadimin obrazı isə tuncdan tökülmüşdür. Əsərin ümumi hündürlüyü isə postamentlə birgə 14 metrə bərabərdir. Əsərdə ciddi, klassik geyimdə təsvir olunan ümumilli lider Heydər Əliyev obrazına diqqət yetirdikdə , siyasi xadimin üz cizgilərində görülən işlərdən razı qaldığını görə bilərik. Əsərdə ümumilli lider sol ayağı irəliyə doğru tam ölçüdə ayaq üstə , əlləri arxa hissədə birləşmiş halda yaradılmışdır. Obrazın baxışlarının nisbətən aşağıya doğru istiqamətlənməsi və üz cizgilərində gülümsəmənin hiss olunması tamaşaçıya ulu öndərin sanki şəhərin gözəlliyindən zövq almasını çatdırır.

Bildiyimiz kim dunyanın bir çox ölkəsində Heydər Əliyevin xatirəsinə həsr olunmuş heykəl ucaldılmışdır.Bu monumental əsərlərdən biri Ukraynanın paytaxtı Kiyev şəhərində yerləşir. Əsərin memarı Ukraynalı məhşur memar Vladimir Sluskiy olmuşdur. Heydər Əliyevin bütün qətiyyətini özündə cəmləmiş olan bu monumentin postamenti, mərmərdən hazırlanmış ölçüsü isə 1.6 metrə bərabərdir. Postamentin üzərində Ukrayna dövlət dilində “Azərbaycanın Ümumilli lideri Heydər Əlirza oğlu Əliyev” yazılmışdır. Hündürlüyü 2.65 sm. çatan abidənin özü isə bürüncdən tökülmüşdür. Əsərə nəzər saldıqda obrazın daxili aləminin professional şəkildə tuncla həkk olunmasının şahidi oluruq. Əsər Heydər Əliyevin bütün heykəllərinə xas olan cəhətləri özündə birləşdirmişdir. Beləki, monumentin üz cizgilərində olan məğrur ifadə, yenilməz, sınmaz liderlik və əzmkarlıq əsərdə tamaşaçılara tam aydın şəkildə heykəltəraş tərəfindən ötürülmüşdür. Heydər Əliyevə ithaf olunmuş bir sıra əsərlərdəki kimi burada da siyasi xadim ciddi klassik geyim üslubunda təsvir olunmuşdur. Obrazın anotomik cəhətdən uğurlu olması da diqqəti özünə cəlb edir. Beləki, əsəri izlədikdə , ümumilli liderimizin sağ əlinin yumruğvari sıxılmış, sol əlinin isə kürsü üzərində təsvir olunduğunu görə bilərik. Ümumilikdə qeyd edə bilərik ki , əlinin yumruqvari sıxılmış olması ulu öndərin həyatının bir parçasının obrazı kimi canlandırılmışdır. Tamaşaçı əsəri izlədikdə ,orada, mütləq şəkildə xalqı öz arxasıyca aparmış, qətiyyətli , əzmkar və olduqca inandırıcı bir liderin olduğunu anında sezə bilir. Abidənin açılışı isə 2004 cü ilə təsadüf etmişdir. Açılışda Urkayna və Azərbaycan prezidentləri iştirak etmiş və iki ölkə arasında olan dostluq və qardaşlıq haqda müəyyən fkirlər söyləmişdirlər. Əsər ulu öndərimizin adını daşıyan parkda yerləşdirilmişdir. Parkı daha da gözəlləşdirən digər məqamlardan biridə orada mozaika vasitəsi ilə işlənilən məhşur Şeyx Səfi xalçasıdır. Xalçanın orjinal ölçülərinə uyğun şəkildə hazırlanmış təsvir özü özlüyündə fontanın başlanğıc nöqtəsində işlənilmişdir.

## Ədəbiyyat:

1. Axundzadə L. XX əsr dünya təsviri incəsənəti. Bakı: 2011., səh. 223
2. Zeynalov A. Heykəllərin şəhər mühitində rolu: //Palitra .-2014.- 25 oktyabr.- s.15.

3. Quliyev R. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, 2013, s. 218.
4. Qasımov F. Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində [Mətn] : sənətşün. üzrə fəls. d-ru e. dər.al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2014

**Эльнур Касумзаде**

## Образ Гейдара Алиева в монументальной скульптуре Азербайджана

## Резюме

Монументальные скульптуры, посвященные общенациональному лидеру Азербайджанской Республики Гейдару Алиеву отличаются глубоким психологическим и духовным содержанием. Все образы, созданные отечественными скульпторами отражают определеный момент его жизни и деятельности. Эстетический вид, пластическая форма и художественное решение созданных скульптур доказывают профессионализм скульпторов.

**Ключевые слова**: скульптура, памятник, монументальная скульптура, образ, статуя.

**Elnur Khasumzade**

## The image of Heydar Aliyev in monumental sculpture of Azerbaijan

## Summary

Monumental sculptures dedicated to national leader of Azerbaijan, statesman, founder of modern Azerbaijan Heydar Aliyev,are selected by their psychological and moral qualities. All the images of the statesman created by our sculptors, had combined the life and activity of the genius personality. Artistic solution, aesthetic appearance, and shape of plastic form of created sculptures show that, our sculptors have aware of the personality psychology and they have created the image of the statesman skillfully.

**Keywords**: sculpture, monument, monumental sculpture, image, statue

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.05.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.05.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 31.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**